Xalidə Şaiq qızl (Məmmədova)38

DASTANLARDA MÖCÜZƏLİ DOĞULUŞ MOTİVİNİN FUNKSİONAL XARAKTERİ

Dastan qəhrəmanlarının qeyri-adi doğuluşu, sehirli və möcüzəli qüvvələrin yardımı ilə dünyaya gəlməsi tipoloji bir motiv kimi əksər dünya xalqlarının folklorunda rast gəlinən bir məsələdir (7, 191).

Milli folklorda möcüzəli doğuluş motivinin kəmiyyət göstəricisi ikinci yerdə dastanları təyin etməkdədir. Bu motiv qəhrəmanlıq və məhəbbət dastanlarımızda bərabər şəkildə təsvir edilmişdir. M. Cəfərli yazır ki, Azərbaycan dastan mətnlərində qeyri-adi doğuluş, yaxud möcüzəli doğuluş süjet hadisəsi olmaqla öz motivlənməsində aşağıdakı hadisələri gerçəkləşdirir:

Var-dövlət paylama, xeyirxah işlər görülməsi yolu ilə alqış-duanın müstəcəb olması nəticəsində uşağın doğulması

Dərvişin verdiyi almanı valideynlərin yeməsi nəticəsində uşağın doğulması

Digər tipli möcüzəli doğuluşlar (6, 27)

Eynən nağıllarda olduğu kimi, dastanlarımızda da möcüzəli doğuluşa gedən yol övladsızlıq motivi ilə mütləq şəklidə çarpazlaşır. Daha doğrusu bu motivin astanasında övladı olmayan valideynlər diqqət mərkəzinə gətirilir. Qəhrəmanlıq dastanlarımıza örnək hesab edilən "Dədə Qorqud Kitabı"nın birinci – "Dirsə xan oğlu Buğac boyu"nda möcüzəli doğuluş motivinin yuxarıda qeyd olunan I tipi ilə səsləşən növü vardır. Amma bu oğuznamədə övladsızlıq motivinin təsviri bəzi özəllikləri ilə yadda qalmaqdadır. İlk boylarda epik ənənədə rast gəldiyimiz – həsrətdən giley-güzar edən övladsız valideynlər təsvir olunmur. Bu övladsızlığı bəylərə qaxınc edən, yada salıb aktuallaşdıran səlahiyyət sahibləri məsələyə qarışır. Övladı olmadığına görə Dirsə Xan ondan bir pillə daha yüksək vəzifə daşıyan Xanlar xanı Bayandır xanın əmrilə qara otağa yerləşdirilir: " Kimin oğlu-qızı yoxdursa, qara otaqda oturdun, altına qara keçə döşəyin, önünə qara qoyun ətinin qoburmasından gətirin. Yeyir-yesin, yemirsə, dursun getsin" deyilir. Məsələni çözə bilməyən Dirsə Xanın " Bayandır Xan mənim hansı əskikliyimi gördü? Qılıncımdanmı gördü, süfrəmdənmi gördü? Məndən əskik kişiləri ağ otaqda, qırmızı otaqda oturtdu. Mənim günahım nə oldu...?" sualına cavabında deyirlər: Oğlu-qızı olmayanı Allah qarğayıbdır, biz də qarğıyırıq" (8, 132). Burdan aydın olur ki, oğuz düşüncəsində oğlu-qızı olmamaq, yəni sonsuzluq tanrı qarğışı kimi qəbul olunur. Buna uyğun olaraq övladı olmaq da tanrı alqışı sayılır (9, 58). Mətni izləməkdə davam edirik və aydın olur ki, Dirsə xan məhz qadınının təkidi ilə alqış yiyəsi olmaq üçün böyük məclis qurdurur. Qadından gələn tapşırıq isə belədir:

Ac görsən, doydur, çılpaq görsən, geyindir!
Borclunu borcundan qurtar
Təpə kimi ət yığ, göl kimi qımız sağdır
Böyük şadlıq məclisi qur, Allahdan arzunu dilə!
Bəlkə bir ağzı dualının alqışı ilə
Tanrı bizə bir yetkin övlad verə (8, 133).

Mətndən göründüyü kimi, bu tapşırığa əməl olunduğu üçün əl götürüb arzularını dilədilər; Allah bir ağzı dualının alqışı ilə övlad verdi. Dirsə xanın arvadı hamilə oldu, bir neçə müddətdən sonra bir oğlan doğdu (8, 134).

"Dirsə xan oğlu Buğac boyu"nun təhlili göstərir ki, oğuz eli övlad haqqında düşünməyən bəyləri cəzalandırır. Əslində üzdə tənə kimi görünən jestin alt qatında artım ideyasına xidmət göstərməyən, başı kef məclislərinə qarışan bəylərin yüngül cəzalandırılması durur. M. Təhmasibin sözləri ilə desək, Bayandır xan övlad qayğısına qalmayanları bu tədbir ilə utandırır, nəsli artırmağın nə qədər böyük əhəmiyyətə malik olduğunu başa salmaq, dərk etdirmək istəyirmiş. Dastandan aydın olur ki, heç bir vəzifə, mövqe, imtiyaz və şöhrət övladsızlıq məsuliyyətini azalda bilmirmiş (10, 71) Bunu ictimai qınaq kimi qiymətləndirmək də olar. Bu cəzadan qurtulmaq üçün isə xeyriyyəçilik etmək, sosial rivah yaratmaq şərtdir.

"Dədə Qorqud Kitabı"nın digər boyunda isə möcüzəli doğuluşa körpü salan övladsızlıq motivi bir az fərqli təsvir olunmuşdur. Artıq uşaqsız qalan oğuz bəyləri onlara ismarıc verilməsini gözləmədən, yüngül cəzalanma istəmədən çarə axtarmağa başlayırlar. III boyun əsas simalarından biri sayılan Baybörə bəy hönkür-hönkür ağlayaraq qarğandığını etiraf edir: Mənim də oğlum olsun, Bayındır xanın xidmətində durub qulluq eləsin, mən də baxım, güvənim, sevinim, fərəhlənim...deyir. Belə dedik-də Qalın oğuz bəyləri göylərə üz tutdular. Əl qaldırıb dua elədilər. Allah-taala sənə bir oğul versin dedilər. O zamanlar bəylərin alqışı alqış, qarğışı qarğış idi. Duaları yerini tuturdu. Baybican bəy də yerindən durdu, dedi: Bəylər, mənimçün də bir dua eliyin. Allah-taala mənimçün də bir qız versin, dedi. Qalın oğuz bəyləri əl qaldırdılar, dua eylədilər. Allah-taala sənə də bir qız versin dedilər... bunun üstündən bir müddət keçdi. Allah Baybörə bəyə bir oğul, Baybican bəyə bir qız verdi (8, 150). Mətndə həm mfoloji, həm də dini inaclar sintez halında təqdim olunur. Bunu incələyək: alqış və qarğış etmə arxetip fəaliyyət aktı olaraq miras qalmışdır. Monoteist dinlərin hamısında insanın yaranması tanrının adına bağlıdır. Təbii ki bu inanc özü qədim miflərdən qaynaqlanır. Və insanın doğuluşu da tanrı istəyi ilə ölçüldüyü üçün dini inanclar da burda nəzərdən qaçmır. Mifsiz, ritualsız dinin təsəvvür edilməsi, əlbəttə ki, çətindir.

"Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu" boyda möcüzəli doğuluş motivi təsvir olunmasa da, ananın dilindən deyilmiş oxşatma ilə məlum olur ki, burda da oğul diləklə göz açmışdır. Övladsız Burla xatun qara donlu dərvişlərə nəzir paylamış, umub-küsənə, dilənçiyə yemək vermiş, ac görsə doyuzdurmuş, çılpaq görsə geyindirmişdir. Xatunun öz dilindən eşidirik:

Dilək ilə bircə oğul güclə tapdım (8, 171)

"Basatın təpəgözü öldürdüyü boy"(8, 98) da möcüzəli xarakterə malik uşaqların dünyaya gəlişini bəyan edir. Təpəgöz insanın – çobanın qeyri-insani varlıq hesab olunan, sakral mənşə mənsubiyyəti daşıyan pəri qızı ilə yaxınlıq etməsi nəticəsində doğulmuşdur. Varlıq zahiri görünüşü, hətta qeyri-adi forması ilə cəlb olunmasa belə, doğulmanın baş verməsi artıq möcüzə kimi qiymətləndirilməlidir. (Müqayisə üçün nağıllarda cin, şeytan, Hal və s. mifoloji personajlarla insanların izdivacından yaranan uşaqları xatırlayırıq). Çobanın pəri qızına yaxınlaşmasının zina adlandırılması və məhz bu zinanın nəticəsində alnında tək gözü olan bədheybət bir varlığın doğulması arasında heç bir əlaqə yoxdur, deyə düşünürük. M.Təhmasibin məsələyə subyektiv münasibətini təqdim edirik: Oğuz elində başqa qadına xəyanət gözü ilə baxmaq ən böyük qəbahət hesab edilir, başqa qadınla zina təpəgözlər törədir (11, 82). Bizcə, bu məsələyə düzgün yanaşma deyildir, olsa-olsa, insanları etik normalara riayət etməyə çağırış kimi səslənə bilər. Amma Təpəgöz obrazının hansı məqsədlə yarandığı məsələsinə gəlincə, Təhmasib

38 AMEA Folklor İnstitutu "Dədə Qorqud" şöbəsinin Böyük elmi işçisi xalide_1978@mail.ru

müəllimin fikirlərinin aktuallaşa biləcəyinə etiraz etmirik. Bizim qənaətimiz isə budur ki, yuxarıda da qeyd etdiyimiz kimi, Təpəgözün pəri anası sakral mənşəyi, marginal keyfiyyətləri ilə seçilən biri olduğu üçün ondan doğulan uşaq da möcüzəli uşaq hesab olunur. Onun doğulma riski möcüzəli şəkildə həyata keçmişdir. Təpəgözün müşahidə edilən bir çox əlamətləri insana xas deyildir. O, doğularkən ana südü əmməklə kifayətlənmir: ona baxmaq üçün tapşırılmış dayənin "bir sordu, olan südünü aldı. İkinci dəfə sordu, qanını içdi, üçüncüdə canını aldı"(11, 197). Pəri ananın gəlib barmağına üzük keçirdərək "Oğul sənə ox batmasın, bədənin qılınc kəsməsin" dediyi Təpəgözün hannibal keyfiyyətləri də onun möcüzəli doğuluşunun bir şərti kimi də qiymətləndirilir. M.Cəfərli Təpəgözün doğuluşunu təqdim etdiyi 3 tipdən 3-cüyə - digər tipli doğuluşlara aid edib (6, 27). Əlimizin altında TMİ olduğuna görə bu tip doğuluş motivlərini indekslər içərisində axtarırıq. T550.2 (Abnormally born child has unusual powers.) (15) nömrəsini belə tərcümə edirik: anormal doğulan uşaqlar və onların qeyri-adi gücləri. Beləliklə, məlum olur ki, "Dədə Qorqud" oğuznamələrində tədqim olunan 3 doğuluş tipindən ikisinin təsvirini oxuya bilirik. Bunlardan birincisi, xeyriyyəçilik etməklə alqış, xeyir-dua qazanmağın nəticəsi olaraq həm də övlad qazanmaq, yəni möcüzəli şəkildə doğuluşa nail olmaq anlamına gəlir. İkincisi isə, digər tip doğuluş dediyimiz, insanın mifoloji varlıqla cinsi əlaqəsi nəticəsində meydana gələn möcüzəli doğuluşları işarələyir. Var-dövlət paylama, xeyirxah işlər görülməsi yolu ilə alqış-duanın müstəcəb olması nəticəsində uşağın doğulmasını məhəbbət dastanlarında da izləyirik. İndi nəzər yetirəcəyimiz mənbə "Qurbani" dastanının Diri versiyasıdır. Züryəti olmayan Fərəməz bəy mal-dövlətinin əksəriyyət hissəsini yetim-yesirə paylayır ki, Allah ona bir oğlan versin, Bu işdən sonra Allahın ona rəhmi gəlir və qurban günündə bir oğlu dünyaya gəlir (3, 87). Yazıya alınmış bir çox dastanlarda bu epik ənənənin davam etdiyini görməkdəyik. "Əsli və Kərəm", "Leyli və Məcnun", "Qul Mahmud", "Novruz", "Alı xan Pəri", "Şirvanlı Qəhrəman şah", "Tufarqanlı Abbas", "Novruz-Qəndab" dastanlarını misal göstərə bilərik. Bəzi məhəbbət dastanlarında isə qəhrəmanlıq dastanlarında rast gəlmədiyimiz sehirli alma əsas vasitəyə çevrilir. Məhəbbət dastanlarında möcüzəli doğuluş motivinin özünəməxsus cəhəti, yəni həm də nağıllarda təsadüf edilməyən özəlliyi qəhrəmanların xarakteri, onların taleləri ilə sıx bağlı olur; bu haqda da təhlil yazmağa cəhd göstərəcəyik. "Tahir və Zöhrə" (3, 110) dastanında züryəti olmayan iki qardaşdan söhbət gedir. Günlərin birində peyda olan dərviş qardaşların birinə alma verərək "al, muradın hasil olar" deyir; sənə verdiyim almanı götür get qardaşının yanına. Yarısını sən öz arvadın ilə, yarısını da qardaşın öz arvadı ilə yeyər. Dastandan görünür ki, Əhmədin oğlu, Hatəmin isə qızı olur. Almadan doğulma motivi dastanlarımızda da ağac kultunun dərin kök saldığını sübut edir. "Ağ Aşıq və Süsənbər" dastanında da atası yuxuda deyir ki, cavan bir dağdağan ağacı var, onun ilk nübarı ilə sənin də ilk barın olacaq (4, 341). Digər türkdilli xalqların da dastan yaradıcılığında ağacın doğum ideyasında aparıcı gücə malik olması mətnlərdən görünür. "Oğuz Xaqan" dastanında ağac oyuğundan yaranma motivi təsvir olunmuşdur. Möcüzəli doğuluşda ağac kultunun rolundan söhbət açarkən həm də ağac oyuğundan yaranma motivini incələmişik. Qırğız eposu olan "Manas" da isə sonsuz qadınların müqəddəs alma ağacının altında oynaması ilə uşağa qalmaları arasında bir əlaqənin mövcudluğu göstərilmişdir (12, 105).Möcüzəli doğuluş motivinin bir çox nağılların və eposların mərkəzi hissəsi olduğunu nəzərə alaraq V.M. Jirmunski sözügedən qırğız eposunda Manasın möcüzəli şəkildə anadan olması haqqında maraqlı fikir bildirmişdi: Manasın anası tərəfindən yuxuda gözl almanın yeyilməsi hər hansı bir meyvənin dadılması nəticəsində geniş şəkildə yayılmış möcüzəli mayalanma motivinin formasıdır (14, 777)". Azərbaycan dastanlarında da ağac kultunun atributlarından biri sayılan almanın doğuş, artım ideyasına göstərdiyi xidmət nağıl motivlərindəki almadan doğuluş motivinin daha obrazlaşdırılmış variantıdır. Həmçinin möcüzəli mayalanmanın hər iki valideynin iştirakı ilə doğulma növünə aiddir. Nağıllarda olduğu kimi, dastanlarda da belə nümunələrin sayı kifayət qədərdir. Onsuz da möcüzəli doğuluş motivinin təsvir olunduğu milli folklor mətnləri bir-birinə xeyli oxşardır. Hətta belə söyləmək olar ki, bəzi başlanğıclarda nağıl motivi mif motivini təkrarladığı kimi, dastan motivi də nağıl motivini təkrarlayır. M. Cəfərli yazır ki, bu cür təkrarlamalar mexaniki təkrarlama deyil. Burada söhbət şərti olaraq təkrarlamadan gedir (6, 26).

Həqiqətən də dastanlarımızda təsvir olunan övladsızlıq motivinin sonucu olaraq sehirli almadan dünyaya gələn möcüzəli uşaqların epik taleyindəki fərqliliklər özünü büruzə vermədən qalmır. Təbii ki, burda janrların spesifikasından irəli gələn fərqlər olduğu kimi, motivin təsvir üsullarında, obrazlılıq və poetizm baxımından bəzi özəlliklər də yox deyildir. Dastanlarımızda möcüzəli doğulan qəhrəmanlar digər folklor janrlarında rast gəlinməyən bir mərhələni də keçməklə qeyi-adi xarakterə malik olduqlarını sübut edirlər. Bu butaalma mərhələsidir ki, məhəbbət dastanlarımızın əsasını təşkil edir. Bu, çox hallarda qəhrəmanın dünyaya gəlmə xüsusiyyətlərindən asılı olur. "Miskin Abdal və Sənubər" dastanında, nağıllarımızda olduğu kimi, alma motivi təkrarlanır. Hüseyn, dərvişin verdiyi almanı onun valideynləri yedikdən 9 ay sonra möcüzəli şəkildə doğulur. Günlərin birində, 3 gecə yatıb ayılmayan Hüseyn haqqında dünyagörmüş bir qocanın dedikləri maraq doğurur: ona buta verilir, haqq aşığı olacaq (4, 81). Beləliklə, aydın olur ki, möcüzəli doğulan dastan qəhrəmanının möcüzəli doğulan nağıl qəhrəmanından ən böyük fərqi butaalma mərhələsindən keçməsi, bu mərhələdən dərhal sonra haqq aşığına çevrilməsidir. Novruz" dastanında paşalardan birinin var-dövləti fağır-füqaraya paylanıldıqdan sonra -"Allahın rəhmilə doğulmuş", "mən butamın dalınca gedəcəyəm" deyən eyniadlı qəhrəmanı da sözügedən mərhələni keçə bilir (2, 25). Bir daha təsdiqlənmiş olur ki, sehirli alma motivini təkrarlamış kimi görünən dastan mətni əslində məzmun və formanı inkişaf etdirərək poetik yüksəliş qazanır. Əlbəttə ki, məhəbbət dastanlarının möcüzəli doğulmayan elə qəhrəmanları ilə tanışıq ki, onlara da yuxuda badə içirdirlər, onlara da buta verib haqq aşığına çevriləcəklərini söyləyirlər. Məs: Aşıq Qərib dastanı (3, 161). Amma iş orasındadır ki,bəzən haqq aşıqları – yuxuda buta alanlar möcüzəli şəkildə doğulmasalar da, möcüzəli doğulanların hamısı butaalma mərhələsini adlayaraq haqq aşığına çevrilirlər. Qeyd olunur ki, ustad yanında aşıqlığın ədəb-ərkanını, saz çalıb oxumağı, dastan söyləməyi öyrənən şağirdlərin 3-4 ildən 10-15 ilə qədər təlim keçdikləri məlumdur (5, 127). Bildiyimiz kimi, dastanlarda möcüzəli doğulub haqq aşığına çevrilənlərin saz çalma məharəti qeyri-adi şəkildə - bədahətən, yəni doğuşdan mümkün olur. Tədqiqat zamanı hətta bəzən fikrimizi dəyişmək qərarına gəldik, bildirmək istədik ki, bəli, bəzi məhəbbət dastanlarının möcüzəli doğulan məşhur qəhrəmanları istisna hal kimi buta verilmədən də aşiq olurlar. "Əsli və Kərəm" dastanının simasında məsələyə diqqətlə yanaşaq. Gəncəli Ziyad xan və vəziri Qara keşişin övladı olmurdu: Nə sənin övladın var, nə də mənim. Öləndən sonra bizim çırağımızı kim yandıracaq. Gəl fağır-füqaranın qarnını doyduraq, nəzir-niyaz verək, bəlkə Allah bizə bir övlad verdi (2, 5). Dastanın sonrakı inkişaf mərhələsini diqqətlə izləyərkən adət etdiyimiz yatıb yuxuya dalma, ardınca butaalma epizodunu sezə bilmirik. Bu, ixtisarmı olunub, yazıyamı alınmayıb, bəlkə ümumiyyətlə xalq bunu düşünməyib tipli fikirlər söyləməyə cəhd edirdik. Amma Kərəm haqqında dastanın 13-cü səhifəsində deyilmiş bir cümlə məsələnin real mənzərəsini ortaya çıxarmış oldu: Bir gün butası yadına düşüb sazını sinəsinə alıb atasının yanına gəldi (1, 13).

Beləliklə, möcüzəli doğulan Kərəmə də buta verildiyi təsdiqlənir. Üstündən ötəri keçmək istəmədiyimiz əsas məqam isə həm də Kərəmin nağıl motivini xatırladan, "Tahir və Zöhrə" dastanında olduğu kimi, sehirli almadan deyil, nəzir-niyazın paylanılmasına cavab olaraq doğulmasıdır. Dastanda nəql olunur ki, Ziyad xan Gəncə əhlini, fağır-füqaranı bir yerə cəm edib onların qarnını doyuzdurduqdan, əyinlərini geyindirdikdən, əlsiz-ayaqsızlara pul verib yola saldıqdan sonra arzusu həyata keçir; bir oğlu dünyaya gəlir. Buta verilən bütün dastan qəhrəmanları kimi, sözünü – ismarıcını sazsız deyə bilməyən, "ata izn ver, dərdimi saz ilə deyim, dilnən desəm, dilim alışıb yanar" söyləyən Kərəmin doğuluşu möcüzəli olduğu kimi, ölümü də möcüzəli olur. O, toy gecəsi Əslinin əynindəki – keşiş tərəfindən xüsusi hazırlanmış tilsimbənd düymələri açarkən alışıb külə dönür. Əsli də o küldən bir ovuc götürərək sevgilisi ilə birlikdə alışıb-yanmağa macal tapır. Xalqın təqdirəlayiq fantaziyasına nəzər yetirək; sonda Əslinin və Kərəmin külünü sandığa qoyub basdırırlar. Sandıq, bilirik ki, ana bətnini simvolizə edən elemntlərdən biri sayılıb. Bu minvalla doğuluşları möcüzəli sayılan qəhrəmanların öldükdən sonra sandığa qoyulması onların bir daha doğulacaqlarına bəslənilən ümidlərlə bağlıdır. Bu həm də möcüzəli doğuluş motivi ilə birbaşa bağlı olan ölüb-dirilmə (inisiasiya) rituallarını xatırladır. Nağıl mətnlərinin strukturuna uyğun quru kəllə tozundan – ölüdən doğulmanı simvolizə edən xüsuiyyətlər də "Əsli və Kərəm" dastanında qəhrəmanların məhz yanıb külə dönmüş nəşlərinin sandığa qoyulması ilə əvəzlənir. Möcüzəli doğulan dastan qəhrəmanının butaalma mərhələsini yaşaması da onun haqq aşığı kimi yenidən doğulmasını ehtiva etməkdədir.

Eşq, yəni məhəbbət dastanlarının başlıca xarakterik cəhəti olan butaalma həm də qəhrəmanların fallik dönəmini, yəni yetginlik yaşına çataraq əks cinsə qarşı xüsusi bir maraq oyandığı dönəmi canlandırır. Bu da qəhrəmanların ikinci doğuluşunun simvolik göstəricisidir. Yatıb haqq aşığı kimi ayılan sevgililərin epik taleyi hardasa şaman mətnlərində rast gəldiyimiz bayılmaların, yuxuya dalmaların, bu ərəfədə ölü zənn edilmək və şaman olaraq dirilmək kimi fəaliyyət aktlarına adekvat olduğu qəribə görünməməlidir.

Möcüzəli doğulan qəhrəmanının dastan mətnlərindəki funksiyası onların öz butasına çatmaq uğrunda mübarizə aparmaları ilə məhdudlaşmır. Dastanlarımızda möcüzəli doğulan qəhrəmanların çiyninə digər səlahiyyətlər də düşür. Miskin Abdal haqda deyilir: O, öz ulularının müqəddəs yolunu yaşatmaq üçün bu dünyaya gəlmişdir (4). Bu cümlə "Miskin Abdal və Şah İsmayıl" dastanındandır. Hansı ki, "Miskin Abdal" dastanının məntiqi davamı olaraq yaradılmışdır. "Miskin Abdal və Sənubər" dastanının sehirli almanın kəraməti ilə doğulan qəhrəmanına badə içirdən dərviş ona "sən də mənim kimi kəramət sahibi, övliya olacaqsan" deməklə yuxarıda vurğulanan müqəddəs yola eyham vurur. Bu dərvişlər, övliyalar möcüzəli doğulan qəhrəmanları himayə etdikləri üçün sakral qoruyucular adlandırılırlar ki, bu haqda da müfəssəl danışmışıq. İndi bircə əlavəmiz var: dastanlarda iştirak edən bu tip müsəlman övliyalar ilahi himayəçi rolunda qəhrəman körpənin atası kimi çıxış edən möcüzəli əcdadın yerini tutmuşdur(13, 229).Dastanlarımızda möcüzəli doğulan qəhrəmanların himayəçisi rolunda dərvişlər, Həzrət Əli, oğuznamələrdə Dədə Qorqud və Xızır çıxış etməkdədir. Orta Asiya eposlarında da bu mənzərə ilə qarşılaşırıq. Gələcək qəhrəmanların valideynləri sitayiş üçün müqəddəs müsəlman övliyalarının – Əli-Şaximərdanın(«Alpamış»), Baba Tuklasın ("Şora-batır"), Baba Ömərin("Sain Batır"), Olaf Hacının (özbək dastanı "Şirin və Şəkər") qəbirlərini ziyarət edir, onların məzarlarının yanında yatırlar. Adətən yuxuda onların yanına bir qoca gəlir və arzularını yerinə yetirəcəyini deyir; daha sonra bu qoca onun himayəçiliyi ilə doğulmuş qəhrəmanın havadarı, möcüzəli köməkçisi olur (229).V. Jirmunski Dədə Qorqudu da bu cür möcüzəli köməkçilərdən biri sayaraq, onu və qazax folklorunda məşhur olan Baba Tuklası- "tüklü övliyanı"(şaşlı Əzizi) müsəlmançılıqdan əvvəlki dövrün şamanı kimi qələmə vermişdir (13, 229)

Məhəbbət və qəhrəmanlıq dastanlarında doğuluş motivinin möcüzəli xarakterini incələyərkən bəzi qənaətlərimiz oldu. Uşaqsız valideynlərin müəyyən öhdəlikləri yerinə yetirməli olduqdan sonra möcüzəli şəklidə övladlarının dünyaya gələcəklərinə dair kök salmış inamları bir daha vurğulamaq istərdik. Bu inamlara görə, arzu- diləyin hasil olması üçün yerinə yetirilməli həmin öhdəliklər aşağıdakılardır:

nəzir-niyaz – sədəqə paylamaq
əhatəli xeyriyyəçilik etmək
sosial rivah yaratmaq
tanrıya yalvarmaq, ibadət etmək
alqış söyləmək, xeyir-dua etmək

Dərvişin verdiyi sehirli almaları gələcək qəhrəmanın valideynləri yeməlidir.

Möcüzəli doğulan qəhrəmanlar tipinə görə fərqlənirlər. Onlar:

Erkən yaşlarından qəhrəmana çevrilirlər
Onları qeyri-adi varlıqlar tərəfindən idarə olunurlar
Onlara yuxuda badə içirdirlər- buta verirlər
Onlar haqq aşığına çevrilirlər

Qeyri- insani varlıqlarla əlaqənin olması da möcüzəli doğulma ilə nəticələnir. Bu tip dastan qəhrəmanları fərqlənirlər:

Görünüşünə görə (təkgözlü)
Xarakterinə görə (hannibal)

Ədəbiyyat

AFK, XX cild. Bakı, Nurlan , 2010, 392 s.
AFK, XXI cild. Bakı, Nurlan, 2010, 392 s.
AFK, XIXcild. Bakı, Nurlan, 2010, 384 s.
AFK, XVII cild. Bakı, Nurlan, 2010: 420 s.
Bayat F. Məhəbbət(eşq) dastanları. Tədqiqlər, Bakı, Səda, 228 s.
Cəfərli M. Dastan və mif. Bakı. Elm. 2001. 188 s.
Cəfərli M. Məhəbbət dastanlarında möcüzəli doğuluş motivləri. Tədqiqlər, IX, Bakı, Səda, 2000.
Kitabi Dədə Qorqud, Bakı, Yazıçı, 1988, 266 s
Rzasoy S. "Azərbaycan dastanlarında şaman-qıhrəman arxetipi". Bakı, elm və təhsil, 2015, 436
Təhmasib M. Məqalələr. Bakı. Elm. 2005, 218 s.
Təhmasib M.H. Seçilmiş əsərləri, I cild. Bakı. Mütərcim. 2010, 488 s.

Ögəl B “Türk mifologiyası” (tərcümə edəni: R.Əskər). Bakı, MBM, 2006. 626s
Жирмунский. В.М. Тюркский героический эпос. Ленинград. Наука, 1974, 727с
Калбаева Г.С. Мотив чудесного рождения в каракалпакслих народных легендах и его исторические оссновы.Вестник РУДН. Серия: Теория языка. Семиотика. Семантика, No 3
Thomson S. «Motif-index of folk-literature», https//sities.ualberta.ca

Açar sözlər: Azərbaycan folkloru, möcüzəli doğuluş motivi, məhəbbət dastanları, qəhrəmanlıq dastanları, “Dədə Qorqud” dastanı, buta, haqq aşığı
Ключевые слова: Азербайджанский фольклор, чудесное рождение, любовные дастаны, героические дастаны, дастан «Деде Горгуд», бута, ашуг истины
Key words: Azerbaijani folklore, miraculous birth, love epics, heroic epics, an epic "Dede Gorgud", buta, lover of justice

Резуме
ФУНКЦИОНАЛЬНЫЙ ХАРАКТЕР МОТИВА ЧУДЕСНОГО РОЖДЕНИЯ В ДАСТАНАХ
Необычное рождение героев дастана, появление на свет при помощи волшебных и таинственных сил является типологическим мотивом, который можно найти в фольклорных произведениях многих народов мира. Количественный показатель мотива чудесного рождения в национальном фольклоре определяет дастаны на втором месте. Данный мотив описан в наших любовных и героических дастанах в равной мере. Необычное появление на свет или чудесное рождение в текстах азербайджанских дастанов, являясь сюжетным событием, в своем мотивировании воплощает следующие события: 1. Рождение ребенка в результате раздачи имущества, совершения добрых дел и выполнения пожеланий и молитв. 2. Рождение ребенка в результате съедания родителями яблока, преподнесенного дервишем. 3. Другие типы рождения в результате действия чудесных сил. Рассматривая чудесный характер мотива рождения в любовных и героических дастанах, мы пришли к определенным заключениям. Бездетные супруги должны выполнить некоторые обязательства, чтобы сбылись их мечты о ребенке. Это следующие обязательства: милостыня – раздача подаяния, совершение объемлющей благотворительности, создание социального благосостояния, мольбы, обращенные к всевышнему, совершение поклонения, произнесение слов благословения, выражение пожеланий, съедание волшебных яблок, преподнесенных дервишем

Summary
FUNCTIONAL CHARACTER OF MIRACULOUS BIRTH MOTIF IN THE EPICS
Unusual birth of the heroes of epics, the birth caused by magical and miraculous forces is an issue met as a typological motif in the folklore of the most world peoples. In the national folklore, the quantity indicator of the miraculous birth motif takes the second place in determining the epics. This motif was equally described in our heroic and love epics. Unusual birth or miraculous birth is the storyline in the epics of Azerbaijan and realize the following events in their motifs: 1. Childbirth as a result of distributing riches, the realization of prayers through carrying out benevolent works 2. Childbirth as a result of eating an apple by the parents given by a dervish. 3. Other kinds of the miraculous birth. We made some conclusions while studying the miraculous character of the birth motif in the love and heroic epics. Childless parents shall implement some commitments so that the prayers come true. These commitments include: giving alms, charity, contributing to social welfare, praying the God, blessings, eating the magic apple given by a dervish.

Rəyçi: dos I. Ələkbərova